Ədəbiyyat QƏZETİ
1 noyabr 2024-cü il 31 № 42

# Rəsulzadə bələdiyyəsi Sona Abbasəliqızının özbək dilində nəşr olunmuş kitabını təqdim etdi







Bugünlərdə Binəqədi rayon Rəsulzadə qəsəbə bələdiyyəsinin sədri Hümbət Hüseynovun rəhbərliyi, Əli Vəliyevin təşkilatçılığı ilə Sona Abbasəliqızının özbək dilinə tərcümə olunmuş kitabının təqdimat mərasimi keçirilib. Tədbirin aparıcısı Sayman Aruz Sona xanımın şeirləri, nəsr yaradıcılığı barədə ətraflı fikir bildirdi.

Özbəkistandan gələn qonaqlar Azərbaycan mühitində kitab təqdimatının nə qədər valehedici olduğunu səmimi sözlərlə etiraf etdilər və Sona xanımın yaradıcılığı haqda nikbin fikirlər səsləndirdilər.

Sona Abbasəliqızının kitabını özbək dilinə tərcümə edən Dilora xanımı AYB-nin fəxri üzvü seçilməsi və "Qızıl qələm" mükafatı alması münasibətilə təbrik etdilər. Sona xanımın özbək dilinə tərcümə olunmuş kitabının Prezident kitabxanasına təqdim edildiyi vurğulandı.

Digər çıxış edənlər - bələdiyyənin sədri Hümbət Hüseynov, Tanrıverdi Paşa, Fəxrəddin Hacıyev, yazıçı Əli Vəliyev, Vüqar Abduyev, İltifaq Abbasov, İmdad Kazımov, Tofiq müəllim, Samir Abdullayev, Nehir Akpolad və digərləri Sona Abbasəliqızına daha məhsuldar yaradıcılıq uğurları arzuladılar.

Tədbirdə Sona Abbasəliqızının "Sözün Xaqanı" romanından da danışıldı, onun Türkiyədə ödül alması, bir sıra xarici ölkələrdə maraqla qarşılandığı xatırladıldı.

*Samir Abdullayev*